**Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqənin**

# SPESİFİKASİYASI

**Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 372 nömrəli Fərmanı ilə təsdiq edilmişdir**

Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə (bundan sonra «qeydiyyat vəsiqəsi» adlandırılacaq) yüksək keyfiyyətli şəffaf plastik örtük (laminat) arasında yerləşdirilmiş və beynəlxalq standartlara uyğun vəsiqələrin istehsalında istifadə olunan teslin adlanan materialdan ibarətdir.

Teslin çap üçün əlverişli olan sintetik, donuq materialdır. Yüksək temperatura və kimyəvi maddələrin təsirinə müqavimətlidir. Rütubətə davamlıdır, fototəsvirin keyfiyyətini yüksəltməklə yanaşı onun saxtalaşdırılmasının qarşısını almaqda xüsusi keyfiyyətə malikdir.

Qeydiyyat vəsiqəsi şəffaf plastik arasında teslindən istifadə olunmaqla isti sıxma üsulu ilə hazırlanır.

Qeydiyyat vəsiqəsinin qalınlığı 0,76 mm-dir. günclər 3,18 mm radius boyunca əyilmişdir. İKAO-nun tələblərinə uyğundur.

Optik nəzarət oxunuşu maşınında və ya maqnit xətt oxuyucusu olan maşında oxuna bilmək üçün şəxsiyyət vəsiqəsinin səthi hamardır.

Qeydiyyat vəsiqəsinin ön hissəsinin altı boyunca maşınla oxuna bilən iki zolaqlı Optik Nəzarət Oxusu hissəsi vardır.

Xüsusi mühafizə dərəcələri olan bu sənəd müasir texniki imkanlar vasitəsi ilə saxtalaşdırıla, yaxud surətçıxarma üsulu ilə hazırlana bilməz.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2933-2934.**